# I mərhələ - Mühasibat uçotu
## İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları üzrə

**1 ballıq test tapşırığı**
İctimai sektor müəssisəsinin hesabat dövründə tanınmış bütün gəlir və xərclərini özündə əks etdirən maliyyə hesabatı aşağıdakılardan hansıdır?

A) Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat
B) Maliyyə vəziyyəti haqqında hesabat
C) Kapitalda dəyişiklik haqqında hesabat
D) Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

**2 ballıq test tapşırığı**
İctimai sektor müəssisəsi 07.01.20X8-ci il tarixində 88 000 manat dəyərində faydalı istifadə müddəti 10 il olan avadanlıq əldə edir. 03.01.20X0-ci ildə avadanlığın yenidən qiymətləndirməsi nəticəsində ədalətli dəyərinin 90 000 manat olduğu müəyyən edilmişdir. Amortizasiyanın illik və düzxətt metodu ilə aparıldığını nəzərə alaraq yenidənqiymətləndirmə üzrə ehtiyat hesabında tanınacaq məbləği müəyyən edin.

A) 19 600 manat
B) 2 000 manat
C) 10 800 manat
D) 28 400 manat

**5 ballıq tapşırıq**

İctimai sektor müəssisəsi hesabat ilində alınmış avadanlıqla bağlı aşağıdakı məlumatları təqdim etmişdir:

| | | manatla |
|---|---|---|
| Avadanlığın alış qiyməti | - | 80 000 |
| İdxal rüsumu | - | 3500 |
| Quraşdırılma xərcləri | - | 4000 |
| Çatdırılma xərcləri | - | 2800 |
| İnzibati və sair xərclər | - | 3600 |
| 3 illik servis xidmətinin dəyəri | - | 5000 |
| Sığorta xərci | - | 800 |
| Avadanlığın işə salınması üçün mütəxəssis xərcləri | - | 2000 |
| Avadanlığın operatorunun öyrədilməsi xərcləri | - | 3000 |
| İstifadəyə verildikdən sonra yerdəyişmə xərcləri | - | 5000 |
| Əlavə dəyər vergisi(18 %, əvəzləşdirilməyən) | - | 19746 |
| **Cəmi** | | **129446** |

Hesabat ilinin 01 mart tarixində təşkilatın rəhbərliyi avadanlığın isitismara tam hazır olması haqqında qərar vermişdir.

Təşkilatın uçot siyasətinə əsasən hesabat ili ərzində oktyabrın 1-dək balansa alınmış əsas fondlara illik amortizasiya hesablanaraq hesabat dövrünün xərclərinə aid edilir.

Avadanlığın illik amortizasiya norması aşağıdakı kimidir:

| Adı | metod | norma |
|---|---|---|
| Maşın və avadanlıq | düz xətt | 11,1 % |

**Tələb olunur:**

İctimai sektor müəssisəsinin hesabat dövrünün sonuna Maliyyə vəziyyəti haqqında hesabatda avadanlıqla bağlı əks olunacaq məbləğini tapın.

**Həlli:**

1) Yeni alınmış avadanlığın ilkin dəyərinin müəyyən edilməsi: (manatla)

| | | manatla |
|---|---|---|
| Avadanlığın alış qiyməti | - | 80 000 |
| İdxal rüsumu | - | 3500 |
| Quraşdırılma xərcləri | - | 4000 |
| Çatdırılma xərcləri | - | 2800 |
| Avadanlığın işə salınması üçün mütəxəssis xərcləri | - | 2000 |
| Cəmi | | 92 300 |
| Əlavə dəyər vergisi (18 %, əvəzləşdirilməyən) | - | 16 614 |
| Avadanlığın ilkin dəyəri | | 108914 |

2) Avadanlığın illik amortizasiya xərci - (108914 *11.1%) = 12089,45 manat

3) Avadanlığın Xalis Balans dəyəri = 108914 – 12089,45 = 96824,55 manat

| Qiymətləndirmə meyarı | | |
|---|---|---|
| Bal şkalası | Meyarlar | Qeyd |
| 3 bal | Avadanlığın ilkin dəyərinin hesablanması | 108914 manat-Hər bir komponentin nəzərə alınmasına görə 0,5 bal verilə bilər. |
| 1 bal | İllik amortizasiya xərcinin hesablanması | 12089,45 manat |
| 1 bal | Xalis balans dəyərinin tapılması | 96824,55 manat |

**10 ballıq tapşırıq**

01.01.20X9-cu ildən fəaliyyətinə başlamış İctimai sektor müəssisəsi dövlət büdcəsindən maliyyələşən təşkilatdır. Bu müəssisənin 31.12.20X9–cu il tarixinə sınaq balansı aşağıdakı kimi olmuşdur:

| | | Dt | Kt |
|---|---|---|---|
| **1** | Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin ödənilməsi üçün pul vəsaitləri (103 - 1) | 5500 | |
| **2** | Material ehtiyatları (121) | 3000 | |
| **3** | Nəqliyyat vasitələri (ilkin dəyəri ilə) (231 - 3) | 80000 | |
| **4** | Nəqliyyat vasitələrinin amortizasiyası (232 - 3) | | 8000 |
| **5** | Tikili və avadanlıq (ilkin dəyəri ilə) (231 - 2) | 45000 | |
| **6** | Tikili və avadanlığın amortizasiyası (232 - 2) | | 4995 |
| **7** | Təhtəlhesab məbləğlər (144) | 8000 | |
| **8** | Verilmiş qısamüddətli avanslar (143)<br>(ehtiyatların alınması ilə əlaqədar) | 6000 | |
| **9** | Qısamüddətli məqsədli maliyyələşmələr və daxilolmalar (334) | | 170000 |
| **10** | Sair məsrəflər-kommunal məsrəflər (122 - 9.1) | 12 000 | |
| **11** | Əməkhaqqı, əməkhaqqına görə ayırmalar və işçilərlə bağlı digər məsrəflər (122 - 4) | 25 000 | |
| **12** | Aktivlərin amortizasiyası (122 - 5) | 12995 | |
| **13** | Sair məsrəflər-cari təmir məsrəfləri (122 - 9.2) | 3 000 | |
| **14** | İstifadə olunmuş materiallar (122 - 3) | 15000 | |
| **15** | Digər qısamüddətli kreditor borcları (309) | | 2500 |
| **16** | Xüsusi vəsaitlər (103 - 5) | 1000 | |
| **17** | Əməkhaqqı, əməkhaqqına görə ayırmalar və işçilərlə bağlı digər məsrəflər (122 – 4.1) (büdcədənkənar vəsait üzrə) | 35 000 | |
| **18** | Sair məsrəflər (122-9.1.1) (büdcədənkənar vəsait üzrə) | 4 000 | |
| **19** | Xidmətlərin göstərilməsi üzrə gəlir (611-2) | | 40 000 |
| **20** | Əvəzsiz olaraq alınmış aktivlər (631-3) (nəqliyyat vasitəsi) | | 30 000 |
| | | **255 495** | **255 495** |

**Tələb olunur:**
Hesabat ilinin sonunda təşkilatın bankda olan hesablaşma hesablarında qalıq məbləğlərin dövlət büdcəsinə qaytarılması ilə bağlı müxabirləşmələrin verilməsini nəzərə alaraq, İctimai sektor müəssisəsinin hesabat dövrü üçün verilmiş Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatının müvafiq xanalarını doldurun.

**MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT**

| Bölmə/ maddə | Bölmə/Maddələrin adı | Uçot siyasəti və izahlı qeydlərin №si | Hesabat dövrü üzrə | |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | **Gəlirlər** | | | |
| | Vergi və məcburi ödənişlərdən daxilolmalar üzrə qeyri-birja gəlirləri | | | |
| | Qeyri-birja əməliyyatlarından gəlir | | | |
| | Birja əməliyyatlarından gəlir | | | |
| | Sair əməliyyat gəlirləri | | | |
| | **Cəmi gəlirlər** | | | |
| 2 | **Xərclər** | | | |
| | Bitməmiş istehsalat və hazır məhsul ehtiyatlarındakı azalmalar (artımlar) | | | |
| | Sərf edilmiş materialların dəyəri | | | |
| | Əmək haqqı, əmək haqqına görə ayırmalar və işçilərlə bağlı digər xərclər | | | |
| | Amortizasiya xərcləri | | | |
| | Maliyyə yardımları və sair transfer ödənişləri üzrə xərclər | | | |
| | Sair əməliyyat xərcləri | | | |
| O cümlədən | xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər[1] | | | |
| | xaricdən maliyyələşdirilən elmi-tədqiqat işləri üzrə xərclər istisna olmaqla sair əməliyyat xərcləri | | | |
| | Maliyyə xərcləri | | | |
| | **Cəmi Xərclər** | | | |
| 3 | **Mənfəət (zərər)** | | | |
| | Ümumi mənfəət (zərər) | | | |
| | Asılı müəssisələrin mənfəətində (zərərində) pay | | | |
| | **Mənfəət (zərər)** | | | |
| | o cümlədən sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəət (zərər) | | | |
| | **Mənfəət vergisi** | | | |
| | **Xalis mənfəət (zərər)** | | | |

## Həlli və qiymətləndirilməsi:

**MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT**

**ölçü vahidi: manat**

| | Qeydlər ə istinad | Hesabat dövrü üzrə | | Qiymətləndirmə meyarı |
|---|---|---|---|---|
| 1 | 2 | **3** | **4** | **5** |
| **Gəlirlər** | | | | |
| Qeyri-birja əməliyyatlarından gəlir | | 150500 | | 1,5 bal |
| Birja əməliyyatlarından gəlir | | 40000 | | 0.5 bal |
| Sair əməliyyat gəliri | | 30000 | | 0,5 bal |
| **Cəmi gəlirlər** | | | **220 500** | **0,5 bal** |
| | | | | |
| **Xərclər** | | | | |
| Əmək haqqı, maaş və işçilərin mükafatlandırılması (DSMF) | | 60000 | | 1 bal |
| Maliyyə yardımları və sair transfer ödənişləri | | | | |
| Təchizat və istehsal prosesində sərf edilən xammal və materiallar | | 15000 | | 0.5 bal |
| Amortizasiya (köhnəlmə) xərcləri | | 12995 | | 0.5 bal |
| Sair əməliyyat xərcləri | | 20000 | | 2 bal |
| Maliyyə xərcləri | | | | |
| **Cəmi Xərclər** | | | **107995** | **1 bal** |
| **Mənfəət(zərər)** | | | | |
| Ümumi mənfəət (zərər) | | | 112505 | 1 bal |
| Asılı müəssisələrdə mənfəətin payı | | | | |
| Mənfəət(zərər) | | | 112505 | 0.5 bal |
| O cümlədən sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəət(zərər) | | | | |
| Mənfəət vergisi | | | | |
| Xalis Mənfəət | | | **112505** | 0,5 bal |

**Gəlirlər:**
Qeyri-birja gəliri= 170000- 5500(103.1)-8000(144)-6000(143)=150500
Birja gəliri= 40000(611)
Sair gəlir= 30000 (631-3)
**Xərclər:**
Əməkhaqqı məsrəfləri= 25 000(122.4)+35000(122.4.1)=60000
Sərf edilmiş materiallar= 15000(122.3)
Amortizasiya xərci= 12 995(122.5)
Sair məsrəflər=12000(122.9)+3000(122.9.2)+4000(122.9.1.1)+1000 (743 xüsusi vəsaitdən büdcəyə qayıdan məbləğ)=20000

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartları**

**1 ballıq test tapşırığı**
Konseptual əsaslar aşağıdakı məsələlərdən hansını əhatə edir?
A) Maliyyə hesabatlarındakı məlumatların faydalılığını müəyyən edən keyfiyyət xüsusiyyətləri
B) Maliyyə hesabatlarının audit edilmə xüsusiyyətləri
C) Maliyyə uçotu və idarəetmə uçotunun fərqləri xüsusiyyətləri
D) Qiymətləndirilmiş və şərti öhdəliklərin saxlanılması üzrə konsepsiyalar

**2 ballıq test tapşırığı**
Qiymətləndirilmiş öhdəliklərin tanınması üçün aşağıdakı şərtlərdən hansıları ödənilməlidir?
I. İqtisadi səmərənin xaricolması dəqiq olmalıdır;
II. İqtisadi səmərənin xaricolması ehtimal olunan olmalıdır;
III. Məbləğ dəqiq olmalıdır;
IV.Məbləğ etibarlı formada təxmin edilməlidir;
V. Keçmiş hadisələrdən yaranan cari öhdəlik olmalıdır.
A) II, IV, V
B) I, II, III
C) II, III, V
D) I, IV, V

**5 ballıq tapşırıq**
Şirkət 1 Oktyabr 20X7-ci il tarixində yeni bir layihə üzərində işləməyə başlamışdır. Yeni layihənin tədqiqat mərhələsi 31 Dekabr 20X7-ci ilə qədər davam etmiş və 1 400 000 AZN xərc ortaya çıxmışdır. Bu tarixdən etibarən şirkət layihənin təcrübə-konstruktor işləri üzrə 1 İyul 20X8-ci il tarixinə qədər aylıq 800 000 AZN xərcləmişdir. 1 Aprel 20X8-ci ildə X şirkətinin direktorları layihənin uğurlu alınacağına və layihənin gəlir gətirəcəyinə əmin olmuşlar. Təcrübə-konstruktor işləri ilə bağlı olan məhsulların istehsalı 1 Sentyabr 20X8-ci il tarixindən etibarən başlamışdır və istehsalın 5 il davam edəcəyi planlaşdırılır.

Sual 1. 1 İyul 20X8-ci il tarixində Şirkət maliyyə vəziyyəti haqqında hesabatda nə qədər təcrübə-konstruktor işləri üzrə məsrəflər kapitallaşdırmalıdır? (1 bal)

Sual 2. 30 Sentyabr 20X8-ci il tarixində bitlən il üzrə Şirkətin mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatında tədqiqat və təcrübə-konstruktor işləri üzrə əks olunacaq xərc nə qədərdir? (2 bal)

Sual 3. 30 Sentyabr 20X8-ci il tarixində maliyyə vəziyyəti haqqında hesabatda əks olunacaq təcrübə-konstruktor işlərinin balans dəyəri nə qədər olacaqdır? (2 bal)

| | |
|---|---|
| Cavab 1 | |
| Cavab 2 | |
| Cavab 3 | |

**Həlli və qiymətləndirilməsi:**

| | |
|---|---|
| Cavab 1 | 2 400 000 AZN |
| Cavab 2 | 3 840 000 AZN |
| Cavab 3 | 2 360 000 AZN |

| Sual | Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|---|
| 1 | Aylıq xərc | - | 800 000 AZN | 1/4 | 1 |
| | Təcrübə-konstruktor işləri mərhələsi | 1-Apr – 1 İyul-X8 | - | 1/4 | |
| | Təcrübə-konstruktor işlərinin dəyəri | 800 000 X 3 | 2 400 000 AZN | 1/2 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | Tədqiqat mərhələsi | - | 1 400 000 AZN | 1/4 | 2 |
| | Təcrübə-konstruktor işlərinin kapitallaşdırılmayan hissəsi (1-Yan-1-Apr-X8) | 800 000 X 3 | 2 400 000 AZN | 1/2 | |
| | Kapitallaşdırılmış təcrübə-konstruktor işlərinin amortizasiya xərci | 2 400 000 (Pros. 1) / 5 X 1/12 | 40 000 AZN | 1/2 | |
| | Cəmi xərc | 1 400 000 + 2 400 000 + 40 000 | 3 840 000 AZN | 1/4 | |

| Sual | Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|---|
| 3 | 1 İyul tarixində təcrübə və konstruktor işlərinin dəyəri | Pros. 1 | 2 400 000 AZN | 1/2 | 2 |
| | Kapitallaşdırılmış təcrübə-konstruktor işlərinin amortizasiya xərci | Pros. 2 | 40 000 AZN | 1/2 | |
| | 30 Sentyabr 20X8-ci il tarixində balans dəyəri | 2 400 000 – 40 000 | 2 360 000 AZN | 1 | |

1**0 ballıq tapşırıq**

Aşağıda X şirkətinin 31 Dekabr 20X2-ci il və 31 Dekabr 20X1-ci il tarixlərinə maliyyə vəziyyəti və mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatı əks olunmuşdur:

**Maliyyə vəziyyəti haqqında hesabat:**

| | 20X2 | 20X1 |
|---|---|---|
| Aktivlər | | |
| Uzunmüddətli aktivlər | | |
| Torpaq, tikili və avadanlıqlar | 560 000 | 320 000 |
| Cəmi uzunmüddətli aktivlər | 560 000 | 320 000 |
| | | |
| Qısamüddətli aktivlər | | |
| Mal-material ehtiyatları | 50 000 | 60 000 |
| Debitor borcları | 70 000 | 50 000 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30 000 | 20 000 |
| Cəmi qısamüddətli aktivlər | 150 000 | 130 000 |
| Cəmi aktivlər | 710 000 | 450 000 |
| | | |
| Kapital və öhdəliklər | | |
| Kapital | | |
| Nizamnamə kapitalı | 100 000 | 80 000 |
| Bölüşdürülməmiş mənfəət | 330 000 | 180 000 |
| Cəmi kapital | 430 000 | 260 000 |
| | | |
| Uzunmüddətli öhdəliklər | | |
| İstiqrazlar | 120 000 | 100 000 |
| Təxirəsalınmış vergi öhdəlikləri | 30 000 | 25 000 |
| Cəmi uzunmüddətli öhdəliklər | 150 000 | 125 000 |
| | | |
| Qısamüddətli öhdəliklər | | |
| Kreditor borcları | 55 000 | 20 000 |
| Cari vergi öhdəlikləri | 75 000 | 45 000 |
| Cəmi qısamüddətli öhdəliklər | 130 000 | 65 000 |
| Cəmi öhdəliklər | 280 000 | 190 000 |
| Cəmi kapital və öhdəliklər | 710 000 | 450 000 |

**Mənfəət və ya zərər haqqında hesabat:**

| | 20X2 |
|---|---|
| Əsas əməliyyat gəliri | 1 500 000 |
| Satışın maya dəyəri | (950 000) |
| Ümumi mənfəət | 550 000 |
| Digər xərclər | (250 000) |
| Əməliyyat mənfəəti | 300 000 |
| Maliyyə xərcləri | (15 000) |
| Vergiqoymadan əvvəlki mənfəət | 285 000 |
| Mənfəət vergisi | (50 000) |
| Hesabat dövründə xalis mənfəət | 235 000 |

31 Dekabr 20X2-ci il tarixində bitən il üzrə aşağıdakı məlumatlar mövcuddur:

1. 20X8-ci ildə 110 000 AZN məbləğində qalıq dəyəri olan torpaq, tikili və avadanlıq 130 000 AZN-ə satılmışdır. Satış zamanı yaranan gəlir “digər xərclər”dən çıxılmışdır. İl ərzində torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya 40 000 AZN olmuşdur.
2. Yeni kreditlər 1 Aprel 20X2-ci il tarixində emissiya edilmişdir.
3. Dövr ərzində Şirkət buraxdığı istiqrazların 50 000 AZN-lik hissəsini ödəmişdir.
4. Şirkət dövr ərzində səhmdarlarına dividend ödənişi etmişdir.
5. İlin sonuna Şirkətin heç bir faiz üzrə öhdəliyi qalmamışdır.

Sual. 31 Dekabr 20X2-ci il tarixində bitən il X Şirkətinin aşağıdakı şablon üzrə pul hərəkətləri haqqında hesabatını tərtib edin.

| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | Məbləğ | Ballar |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | | 0.25 |
| Mənfəət vergisi üzrə xərclər | | 0.25 |
| Amortizasiya xərcləri | | 0.50 |
| Faiz xərcləri | | 0.25 |
| Torpaq, tikili və avadanlıqların satışıdan gəlir | | 0.50 |
| Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri | | |
| Ehtiyatların azalması | | 0.25 |
| Debitor borclarının artması | | 0.25 |
| Kreditor borclarının artması | | 0.25 |
| Ödənilmiş faizlər | | 0.25 |
| Ödənilmiş mənfəət vergisi | | 1.00 |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri | | |
| Torpaq, tikili və avadanlıqların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | 1.00 |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | 2.00 |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | |
| | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | |
| Səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | 0.50 |
| İstiqraz vərəqələrinin buraxılmasından pul vəsaitlərinin daxilolmaları | | 0.50 |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | 0.25 |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | 0.50 |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti: | | |
| Pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | | 0.50 |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | 0.50 |
| Pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği | | 0.50 |

**Həlli və qiymətləndirilməsi**:

| Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti | Hesablama | Məbləğ |
|---|---|---|
| Hesabat dövründə xalis mənfəət və ya zərər | - | 235 000 |
| Mənfəət vergisi üzrə xərclər | - | 50 000 |
| Amortizasiya xərcləri | - | 40 000 |
| Faiz xərcləri | - | 15 000 |
| Torpaq, tikili və avadanlıqların satışıdan gəlir | - | (20 000) |
| Dövriyyə kapitalındakı dəyişikliklərə qədər əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitləri | 235 000 + 50 000 + 40 000 + 15 000 – 20 000 | 320 000 |
| Ehtiyatların azalması | 60 000 – 50 000 | 10 000 |
| Debitor borclarının artması | 50 000 – 70 000 | (20 000) |
| Kreditor borclarının artması | 55 000 – 20 000 | 35 000 |
| Ödənilmiş faizlər | - | (15 000) |
| Ödənilmiş mənfəət vergisi | Pros. 1 | (15 000) |
| Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 320 000 + 10 000 – 20 000 + 35 000 – 15 000 – 5 000 | 315 000 |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri | | |
| Torpaq, tikili və avadanlıqların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | Pros. 2 | 130 000 |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | Pros. 3 | (390 000) |
| İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 130 000 – 390 000 | (260 000) |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti | | |
| Səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 100 000 – 80 000 | 20 000 |
| İstiqraz vərəqələrinin buraxılmasından pul vəsaitlərinin daxilolmaları | Pros. 4 | 70 000 |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | - | (50 000) |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | Pros. 5 | (85 000) |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti | 20 000 + 70 000 – 50 000 – 85 000 | (45 000) |
| Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti: | | |
| Pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği | - | 20 000 |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | 315 000 – 260 000 – 45 000 | 10 000 |
| Pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan | 20 000 + 10 000 | 30 000 |

| | | |
|---|---|---|
| məbləği | | |

**1.** Ödənilmiş mənfəət vergisinin hesablanması:

| Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|
| 1 Yanvar 20X2-ci il tarixində cari vergi və təxirəsalınmış vergi öhdəliklərinin cəmi | 25 000 + 45 000 | 70 000 AZN | 0.25 | 1 |
| 31 Dekabr 20X2-ci il tarixində cari vergi və təxirəsalınmış vergi öhdəliklərinin cəmi | 30 000 + 75 000 | 105 000 AZN | 0.25 | |
| Mənfəət vergisi | - | 50 000 AZN | 0.25 | |
| Ödənilmiş mənfəət vergisi | 70 000 + 50 000 – 105 000 | 15 000 AZN | 0.25 | |

2. Əsas vəsaitin satışından yaranan gəlir və ya zərərin hesablanması:

| Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|
| Satılan əsas vəsaitin qalıq dəyəri | - | 110 000 AZN | 0.25 | 1 |
| Satışdan mədaxil | - | 130 000 AZN | 0.25 | |
| Satışdan yaranan gəlir | 130 000 – 110 000 | 20 000 AZN | 0.5 | |

**3.** Əsas vəsaitlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmasının hesablanması:

| Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|
| 1 Yanvar 20X2-ci il tarixində qalıq dəyəri | - | 320 000 AZN | 0.25 | 2 |
| 31 Dekabr 20X2-ci il tarixinə qalıq dəyəri | - | 560 000 AZN | 0.25 | |
| Amortizasiya | - | 40 000 AZN | 0.25 | |
| Satılan əsas vəsaitin qalıq dəyəri | Pros. 2 | 110 000 AZN | 0.25 | |
| Əsas vəsaitini alınması üçün pul xaricolması | 560 000 + 40 000 + 110 000 – 320 000 | 390 000 AZN | 1 | |

**4.** İstiqraz vərəqələrinin buraxılmasından pul vəsaitlərinin daxilolmalasının hesablanması:

| Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|
| 1 Yanvar 20X2-ci il tarixində qalıq dəyəri | - | 100 000 AZN | 0.25 | 1 |
| 31 Dekabr 20X2-ci il tarixinə qalıq dəyəri | - | 120 000 AZN | 0.25 | |
| İl ərzində ödəniş | - | 50 000 AZN | 0.25 | |
| Əlavə istiqrazların buraxılması | 120 000 + 50 000 – 100 000 | 70 000 AZN | 0.25 | |

**5.** Dividendlər şəklində pul vəsaitlərinin xaricolmalarının hesablanması:

| Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|
| 1 Yanvar 20X2-ci il tarixində bölüşdürülməmiş mənfəətin qalıq dəyəri | - | 180 000 AZN | 0.25 | 1 |
| 31 Dekabr 20X2-ci il tarixində bölüşdürülməmiş mənfəətin qalıq dəyəri | - | 330 000 AZN | 0.25 | |
| Hesabat dövründə mənfəət | - | 235 000 AZN | 0.25 | |
| Dividendlərin ödənişi | 180 000 + 235 000 - 330 000 | 85 000 AZN | 0.25 | |

## Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları

**1 ballıq test tapşırığı**

Aşağıdakılardan hansı Azərbaycan Respublikasında tətbiq edilən mühasibat uçotu standartlarına aid deyil?

A) Publik Hüquqi Şəxslərin Beynəlxalq Standartları

B) Maliyyə Hesabatlarının Beynəlxalq Standartları

C) Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları

D) İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları

**2 ballıq test tapşırığı**

A şirkəti 1 sentyabr 202X-ci il tarixində 12 000 AZN dəyərində avadanlıq almışdır. Şirkət avadanlıqları 25% azalan qalıq metodu ilə amortizasiya edir. Şirkət amortizasiya xərcini il üzrə mütənasib formada bölüşdürür. Şirkətin 31 dekabr 202X-ci il tarixində bitən il üzrə amortizasiya xərci nə qədərdir?

A) 1000 AZN

B) 3000 AZN

C) 250 AZN

D) 0 AZN

**5 ballıq tapşırıq**

X Şirkəti 1 Yanvar 20X1-ci il tarixində alış qiyməti 100 000 AZN olan avadanlıq aldı. Bu avadanlığın çatdırılma xərci 10 000 AZN, quraşdırılma xərci 20 000 AZN və əvəzləşdirilən vergilər 5 000 AZN-ə bərabərdir. Avadanlığın faydalı istismar müddəti 10 ilə, son qalıq dəyəri isə 0-a bərabərdir. Şirkət 31 Dekabr 20X1-ci il tarixində yenidən qiymətləndirmə modelinə keçid edir. Həmin tarixdə avadanlığın bazar dəyəri 144 000 AZN-ə bərabər idi. 30 İyun 20X2-ci il tarixində Şirkət avadanlığın qalıq istismar müddətində dəyişiklik edərək 8 ilə dəyişdirir.

Sual 1. 1 Yanvar 20X1-ci il tarixində X Şirkəti maliyyə vəziyyəti haqqında hesabatda avadanlığın ilkin dəyərini hansı məbləğdə göstərəcəkdir?(1 bal)

Sual 2. 31 Dekabr 20X1-ci il tarixində bitən il üzrə X Şirkətinin digər məcmu gəlir haqqında hesabatında əks olunacaq yenidən qiymətləndirmə üzrə gəlir nə qədərdir? (2 bal)

Sual 3. 31 Dekabr 20X2-ci il tarixində bitən il üzrə X Şirkətinin mənfəət və ya zərər haqqında hesabatında əks olunacaq amortizasiya xərci nə qədərdir? (2 bal)

| | |
|---|---|
| Cavab 1 | |
| Cavab 2 | |
| Cavab 3 | |

**Həlli və qiymətləndirilməsi:**

| | |
|---|---|
| Cavab 1 | 130 000 AZN |
| Cavab 2 | 27 000 AZN |
| Cavab 3 | 16 500 AZN |

| Sual | Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|---|
| 1 | Alış qiyməti | - | 100 000 AZN | 1/4 | 1 |
| | Çatdırılma xərci | - | 10 000 AZN | 1/4 | |
| | Quraşdırılma xərci | - | 20 000 AZN | 1/4 | |
| | İlkin dəyər | 100 000 + 10 000 + 20 000 | 130 000 AZN | 1/4 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2 | İlkin dəyər | Pros. 1 | 130 000 AZN | 1/4 | 2 |
| | Amortizasiya (20X1) | 130 000 / 10 | 13 000 AZN | 1/2 | |
| | 31-Dek-X1-ci il tarixində qalıq dəyəri | 130 000 – 13 000 | 117 000 AZN | 1/2 | |
| | Yenidən qiymətləndirilmiş dəyər | - | 144 000 AZN | 1/4 | |
| | Yenidən qiymətləndirmə üzrə gəlir | 144 000 – 117 000 | 27 000 AZN | 1/2 | |

| Sual | Meyar | Hesablama | Məbləğ | bal | Cəmi bal |
|---|---|---|---|---|---|
| 3 | Qalıq dəyəri (1-Yan-X2) | Pros 2. | 144 000 AZN | 1/4 | 2 |
| | Amortizasiya (1-Yan - 30-İyun-X2) | 144 000 / 9 X 6 / 12 | 8 000 AZN | 1/2 | |
| | Qalıq dəyəri (30-İyun-X2) | 144 000 – 8 000 | 136 000 AZN | 1/4 | |
| | Amortizasiya (1-İyul - 31-Dek-X2) | 136 000 / 8 X 6 /12 | 8 500 AZN | 1/2 | |
| | Amortizasiya (20X2) | 8 000 + 8 500 | 16 500 AZN | 1/2 | |

1**0 ballıq tapşırıq nümunəsi üçün MHBS üzrə verilmiş nümunəyə baxa bilərsiniz**

## II mərhələ - Qanunvericilik

## Büdcə qanunvericiliyi

**1 ballıq test tapşırığı**

Dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, inzibati və digər prinsiplər əsasında qruplaşdırılması necə adlanır?

A) Büdcə təsnifatı;
B) Təsdiq olunan büdcə ayırmaları;
C) Müdafiə olunan xərc maddələri;
D) Toplu maliyyə balansı.

**2 ballıq test tapşırığı**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən büdcəyə daxilolmaların vəziyyətindən asılı olmayaraq iqtisadi təsnifatın aşağıda qeyd olunan maddələrindən müdafiə olunan xərc maddələrini müəyyən edin.

1. Əmək haqqı
2. Əmək haqqına üstəlik
3. Malların satınalınması ilə bağlı xərclər
4. Pensiya, başqa sosial müavinətlər və ödənişlər
5. Əsaslı təmir xərcləri
6. İnvestisiya xərcləri
7. Dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər

A) 1, 2, 4, 7
B) 1, 2, 3, 4
C) 1, 2, 5, 6
D) 1, 3, 6, 7

## Əmək qanunvericiliyi

**1 ballıq test tapşırığı**

Əməyin vaxtamuzd ödənilmə sistemində iş vaxtından artıq vaxtda görülən işə görə işçiyə əməkhaqqı hansı qaydada ödənilir?

A) Saatlıq tarif maaşının 1.5 mislindən aşağı olmamaqla
B) Saatlıq tarif maaşının 2 mislindən aşağı olmamaqla
C) Saatlıq tarif maaşından artıq olmamaqla;
D) Saatlıq tarif maaşının 3 mislindən aşağı olmamaqla

**2 ballıq test tapşırığı**

Əmək haqqının verilmə yeri, forması və ödənilmə vahidi ilə bağlı aşağıdakılardan hansı(lar) yanlışdır?

I. Əmək haqqı Azərbaycan Respublikasının pul vahidi- manatla ödənilir
II. İşçinin razılığı ilə işçiyə əməkhaqqının 10 faizi mütənasib dəyərli natura formasında müəssisədə istehsal edilən alkoqollu içkilər ilə əvəz edilib verilə bilər.
III. Əmək haqqı işçinin yalnız bank hesabına köçürülə bilər

A) I və II
B) I, II, III
C) II və III
D) Yalnız II

## Mülki qanunvericilik

**1 ballıq test tapşırığı**

Hüquqi şəxslər yenidən təşkil edilərkən hüquq varisliyi ilə bağlı aşağıdakı variantlardan hansı yanlışdır?

A) Hüquqi şəxs bölündükdə onun hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış hüquqi şəxslərə keçir

B) Hüquqi şəxs digər hüquqi şəxsə qoşulduqda qoşulan hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq əvvəlki hüquqi şəxsə keçir.

C) Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrıldıqda yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri bölünmə balansından asılı olmayaraq köhnə hüquqi şəxsdə qalır.

D) Hüquqi şəxslər birləşdikdə onlardan hər birinin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir.

**2 ballıq test tapşırığı**

Təsərrüfat ortaqlıqları və cəmiyyətləri ilə bağlı aşağıdakı variantlardan hansı(lar) yanlışdır?

I. Təsərrüfat ortaqlıqları yalnız kommandit ortaqlığı formasında yaradila bilər

II. Təsərrüfat cəmiyyətləri məhdud və ya əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradıla bilər

III. Təsərrüfat cəmiyyətlərinin iştirakçıları yalnız fiziki şəxslər ola bilərlər

IV. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri bu Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, başqa təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin təsisçiləri (iştirakçıları) ola bilərlər

A) Yalnız I

B) II və IV

C) I və III

D) II və III

## Vergi qanunvericiliyi

**1 ballıq test tapşırığı**

Aşağıdakı vergilərdən hansı dövlət vergilərinə aid deyil?

A) Fiziki şəxslərin gəlir vergisi
B) Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi
B) Sadələşdirilmiş vergi
C) Hüquqi şəxslərin əmlak vergisi

**2 ballıq test tapşırığı**

Aşağıdakı gəlirlərdən hansı(lar) qeyri-sahibkarlıq fəaliyyətindən gəlirlərə aid deyil?

I. Royalti
II. Sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan aktivlərin təqdim edilməsindən gəlir
III. Sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasına razılıq verilməsinə görə alınan gəlir
IV. Sahibkarlıq fəaliiyəti məqsədləri üçün istifadə olunan aktivlərin təqdim edilməsindən gəlir
V. Həyatın yığım sığortası üzrə sığorta olunanın ödədiyi və ya onun xeyrinə ödənilən sığorta haqları ilə sığorta ödənişləri arasındakı fərq

A) Yalnız III
B) I, IV və V
C) II, IV və V
D) III və IV

**10 ballıq tapşırıq**

Topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan X Müəssisəsi mənfəət vergisi ödəyicisidir. 2020-ci ildə müəssisə topdan qaydada malların təqdim olunmasından 1 200 000, pərakəndə qaydada malların təqdim olunmasından 600 000, işlərin görülməsindən 120 000, icarəyə obyekt təqdim olunmasından 98 000, Azərbaycan Respublikasının hüdudlarından kənarda təsisçisi olduğu qeyri-rezident Y müəssisəsindən 200 000 dividenddən gəlir əldə etmişdir. Pərakəndə qaydada təqdim olunan malların 20%-i vergi ödəyicisi olmayan şəxslər tərəfindən aparılan ödənişlər təşkil edir. Müəssisənin təqdim etdiyi malların maya dəyəri 1 400 000 təşkil edir. Həmçinin eyni ildə ilin əvvəlinə qalıq dəyəri 100 000 AZN olan avadanlığa maksimum hədlə amortizasiya hesablanaraq xərcə silinmiş, avadanlığın təmirinə 17 000 xərc çəkilmiş, müəssisənin şahmat komandası üçün 4 300 AZN-lik geyim və aksesuarlar alınmışdır. Müəssisənin il üzrə 120 000 əməkhaqqı, 19 200 məcburi dövlət sosial sığorta, 5 000 işçilərin həyat sığortası və işçilərinin əmlaklarının sığortası üçün 6 000 xərci olmuşdur. Yerli sığortaçı ilə bağlanmış müqavilə üzrə işçilərin həyat və əmlaklarının sığortası üzrə ödənişlərin yarısı eyni ildə həyata keçirilmişdir. İşçilərin faktiki ezamiyyə xərcləri 16 000, norma daxilində ezamiyyə xərcləri isə 15 000 olmuşdur. Müəssisə ölkədəki banklararası kredit hərracında illik kredit faizi 8% təşkil etdiyi halda Azərbaycan Respublikasının rezidenti olmayan bankdan ilin əvvəli illik 15%lik 320 000 dəyərdə kredit götürmüş və bunun müqabilində 48 000 kredit faizi hesablamışdır. Həmçinin eyni ildə Əmək Müfəttişliyi tərəfindən yoxlama zamanı müəssisəyə 1 500 AZN inzibati cərimə hesablanmışdır. Müəssisənin mənfəət vergisi məqsədləri üçün hesablama metodundan istifadə etdiyini nəzərə alaraq müəssisənin 2020-ci il üzrə mənfəət vergisini hesablayın:

**Həlli:**

| **Gəlirlər** | **Məbləği** | **Açıqlama** | **İstinad** | **Bal** |
|---|---|---|---|---|
| Topdan ticarət üzrə | 1,200,000.00 | | 104.1-cü maddə | 0.5 |
| Pərakəndə ticarət üzrə | 600,000.00 | | 104.1-cü maddə | 0.5 |
| İşlərin görülməsi üzrə | 120,000.00 | | 104.1-cü maddə | 0.5 |
| İcarəyə təqdim olunmadan | 98,000.00 | | 124.3-cü maddə | 0.5 |
| Dividend | 200,000.00 | | 104.1-cü maddə | 0.5 |
| **Cəmi gəlir** | **2,218,000.00** | | | |

| **Xərclər** | **Məbləği** | **Açıqlama** | **İstinad** | **Bal** |
|---|---|---|---|---|
| Maya dəyəri | 1,400,000.00 | | 108-ci maddə | 0.5 |
| Amortizasiya | 22,400.00 | ((100000+(17000-100000*5%))*20% | 114.6-cı maddə | 0.5 |
| Təmir xərci | 5,000.00 | 100000*5% | 115.1-ci maddə | 0.5 |
| Şahmat komandasına geyim | - | Gəlirdən çıxılmır | 109.3-cü maddə | 0.5 |
| Əməkhaqqı | 120,000.00 | | 108-ci maddə | 0.5 |
| Sosial sığorta haqqı | 19,200.00 | | 108-ci maddə | 0.5 |
| İşçilərin həyat sığortası | 2,500.00 | Ödənən hissə gəlirdən çıxılır | 116.1-ci maddə | 0.5 |
| İşçilərin əmlakının sığortası | | Gəlirdən çıxılmır | 116.1-ci maddə | 0.5 |
| Norma daxilində ezamiyyə xərci | 15,000.00 | | 109.7-ci maddə | 0.5 |
| Kredit faizi xərci | 32,000.00 | (320000*8%*1.25) | 110.1-ci maddə | 1 |
| İnzibati xəta üzrə cərimə | | Gəlirdən çıxılmır | 119.1.2-ci maddə | 0.5 |
| **Cəmi xərclər** | **1,616,100.00** | | | |
| **Mənfəət** | **601,900.00** | | | |
| **Mənfəət vergisi** | **120,380.00** | | | |
| **Azadolma** | **1,628.22** | 120380*((600000*20%)/2218000*100%)*25% | 106.9-cu maddə | 1 |
| **Mənfəət vergisi öhdəliyi** | **118,751.78** | | | 0.5 |